AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İNSAN HÜQUQLARI ÜZRƏ ELMİ-TƏDQİQAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**FƏYYAZİ EBADULLAH ABDULNASİR**

# MÜASİR DÖVRDƏ İRAN VƏ RUSİYANIN SİYASİ ƏLAQƏLƏRİ

**İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları üzrə Elmi- Tədqiqat İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbər :** **R. F. Mustafayev**
*siyasi elmlər doktoru, professor*

**P.Q.Darabadi**
*tarix elmlər doktoru, professor*

**Rəsmi opponentlər :** **G.İ.İbrahimova**
*siyasi elmlər doktoru*

*İ.M.Məmmədova*
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat :** **Bakı Dövlət Universitetinin "Diplomatiya və inteqrasiya prosesləri" kafedrası**

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 17 mart 2014-ci il tarixli 68 saylı əmri ilə 5901.01- "Beynəlxalq münasibətlər" ixtisası üzrə siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün yaradılmışFD.01.242 Müvəqqəti Dissertasiya Şurasının" 10 ""_10__" 2014-cü il tarixli iclasında saat "___"da keçiriləcək.

**Ünvan:** Az 1143, Bakı şəhəri, H.Cavid pr. 31 (Akademiya şəhərciyi)

Dissertasiya işi ilə AMEA İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__" "____________" 2014-ci il tarixində göndərilmişdir.

**FD.01.242 saylı Müvəqqəti**
**Dissertasiya Şurasının elmi katibi:** **s.e.ü.f.d.** **R.Ə.Hüseynov**

**İŞİN ÜMUMİ XARAKTERİSTİKASI**

**Mövzunun aktuallığı.** XX əsrin sonlarında SSRi-nin süquta uğramasından sonra geniş mənada Yaxın və Orta Şərq məkanında (bu məkana həmdə «Böyük Yaxın Şərq», ingiliscə «The Great Middle East» də deyirlər) və bu məkana daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında qlobal xarakterli dəyişikliklər baş verdi, yeni müstəqil dövlətlər yarandı və, bunun nəticəsi olaraq, yeni dövlətlərarası beynəlxalq münasibətlər sistemi formalaşmağa başladı. Belə sistemin qurulması və formalaşması ilə bərabər müasir dövrdə bu sistemin gələcək inkişafına bir necə vacib əhəmiyyətli amil təsir edir. Bunların içində Rusiyanın dünyanın geostrateji cəhətdən güc mərkəzlərindən biri olmasının davam etməsini, İranın və Türkiyənin regional aparıcı dövlətlərdən birinə çevrilməsini, Qərb ölkələrinin bu məkana girməsini və burada öz siyasi və iqtisadi maraqlarını güdməsini, bu geostrateji məkanda yeni dövlətlərin yaranmasını və bunun nəticəsi kimi yeni dövlətlərarası münasibətlərin qurulmasını göstərmək olar. O cümlədən, bunların içində Rusiya-Azərbaycan, İran-Azərbaycan dövlətlərarası münasibətlərin qurulmasını da göstərmək olar. Bununla yanaşı, qloballaşma dövründə bu regionlarda yaranan və formalaşan dövlətlərarası beynəlxalq münasibətlər sisteminə, ilk növbədə, bu məkanda yerləşən dünya güc mərkəzləri statusuna və regional güc mərkəzləri statusa malik dövlətlər arasında olan münasibətlərin bugünki vəziyyəti, xarakteri, səviyyəsi və perspektivləri regionda ən təsiredici qüvvəyə malik olan amillərdən biridir. Bunların içində, ilk növbədə İran-Rusiya dövlətlərarası münasibətləri xüsusi yer tutur və xüsusi əhəmiyyət kəsb edir. Bu onunla izah olunur ki, İran-Rusiya dövlətlərarası münasibətlər regionda formalaşan münasibətlər sisteminə təsiredici qüvvəyə malik olan ən vacib amillərdən biridir.

Onu da qeyd etmək lazımdır ki, İran-Rusiya münasibətlərinin uzun tarixçəsi var. Əsrlər boyu İran və Rusiya dövlətləri arasında əlaqələr müxətlif ziddiyyətlərlə qarışıq olduğu üçün özündə fərqli əlaqələri əks etdirirdi və iki ölkənin əlaqələrinə kölgə salan məqam, Rusiyanın bir Avropa nəhəng ölkəsi kimi İranın təsir dairəsində olan əraziləri zəbt etmək istəyi, İranın isə, bunun əksinə olaraq, Rusiyanın bu işğalçı siyasətinə qarşı müqavimət göstərməsi siyasətin yürüdülməsi olmuşdur. Rusiya çarların dövrünə qədər İrana qarşı düşmən və işğalçı siyasət yürütmüşdür. Bu məsələni bəlkə də belə izah etmək olar ki, Rusiya Səfəvilərin süqutundan Pəhləvilərin hakimiyyətə gəlməsinə qədər olan dövrdə tarixi fürsətləri qənimət sayıb İranın təsiri altında olan əraziləri işğal etmək istəyində olmuşdur. Yəni, bu dövrlərdə, Rusiyanın və İranın strateji maraqları bir birinə zidd idi.

Bütövlükdə götürsək isə, İran və Rusiya dövlətləri arasında siyasi əlaqələrin səviyyəsi müxtəlif dövrlərdə bir-birindən fərqli olmuş və çoxlu dəyişikliklər ilə müşahidə edilmişdir.

Kommunizm ideologiyasından iflasa uğraması və Sovet İttifaqının dağılması nəticəsində İran və Rusiya coğrafi baxımdan bir-birindən aralanmışdır. Belə ki, əgər İran və SSRİ arasında ümumi sərhəd mövcud idisə, artıq bu iki ölkə arasında ümumi sərhəd yoxdur. Təkcə Xəzər dənizi üzrə bu iki ölkə arasında birbaşa əlaqə qurmaq

mümkündür. Lakin Xəzərin hüquqi statusunun bu günə kimi müəyyən edilməməsi bu sahədə də müəyyən çətinliklər və problemlər yarada bilər.

Beynəlxalq münasibətlər sisteminin strukturunda qlobal dəyişikliklərin baş verməsi, regional və geopolitik mövqe və siyasi sistemlərin dəyişikliyə uğraması İran və Rusiya dövlətlərinin əməkdaşlıq etməsi üçün xüsusi bir vəziyyət yaratmış və son 20 il ərzində İran və Rusiya arasında münasbətləri yeni müstəviyə qaldırmışdır. Müasir dövrdə İran-Rusiya dövlətlərarası münasibətlərdə çox böyük əhəmiyyət daşıyan məsələlər sırasında nüvə energetikası, hərbi, elmi-texniki, Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi sahələrində əməkdaşlığı qeyd etmək olar.

Bununla yanaşı, hər iki ölkənin strateji və regional maraqlarının üst-üstə düşməsi, geniş mənada Orta Şərq və ona daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sabitliyin qorunub saxlanılması, NATO-nun Şərqə doğru genişlənməsinə qarşı çıxması və s. bu iki dövlət arasında əməkdaşlığın inkişaf etməsi üçün zəruri şərtlər yaratmişdır. Hal-hazırda Rusiya Federasiyası və İran İslam Respublikası bir çox müştərək maraqlara malikdirlər. İki ölkə bir çox sahələrdə (məsələn iqtisadi sahədə) ikitərəfli və regional əməkdaşlıqlar üçün yüksək potensiala malikdirlər. Bundan əlavə, Orta Şərq regionu ölkələrinə qərb supergüc dövlətlərin daxil olmasını, bu regional ölkələrin mövcud vəziyyətini, xüsusi ilə də Cənubi Qafqazda, Əfqanıstanda olan mövcud vəziyyəti müşahidə etdikdə, Moskvanın Rusiyanın cənubunda möhkəm, sabit və mühüm bir dayaq nöqtəsi kimi İranın təhlükəsizliyi məsələsində çox böyük ehtiyacı vardır. Habelə, Rusiya Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrində İranın təsirinin artmasından da xəbərdardır. Buna görə də hal-hazırda Rusiya və İranın əlaqələrini daha yaxşı anlamaq, bir sıra məsələlərə və amillərə xüsusi diqqət yetirmək məqsədəmüvafiqdir. Bütün bünlar həm elmi-nəzəri, həmdə praktiki cəhətdən İran-Rusiya qarşılıqlı münasibətlərinin müasir dövr mərhələsinin tədqiq edilməsi probleminin, bu iki dövlətlər arasında münasibətlərin İran-Azərbaycan və Rusiya-Azərbaycan münasibətlərinə nə dərəcədə və necə təsir etməsi məsələlərin araşdırılmasın çox aktual olmasını bir daha sübut edir.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Tədqiqat işinin yazılmasında Rusiya-İran münasibətlərinin müxtəlif aspektlərinin tədqiqinə həsr olunmuş ədəbiyyatlarından istifadə edilmişdir. Bununla yanaşı, elmi ədəbiyyatda bu problemin ayrı-ayrı məqamlarının təhlilinə baxmayaraq, bu problemin sistemli şəkildə hərtərəfli araşdırılması ayrıca aparılan müstəqil tədqiqatın predmeti olmadığı üçün bu sahədə müəyyən boşluqlar var. Hazırki elmi araşdırmanın əsas məqsədi bu boşluqları müəyyən dərəcədə aradan qaldıraraq və müasir dövrdə İran və Rusiya arasında münasibətlərin mahiyyətini və məzmununu sistemli şəkildə tədqiq etməkdən və praktiki əhəmiyyətini göstərməkdən ibarətdir.

Rusiya elmi ədəbiyyatında Rusiya-İran münasibətlərinin bir sıra nəzəri və tarixi aspektlərinin təhlili öz əksini tapmışdır. Rusiya-İran münasibətlərinin inkişafına dair Rusiyanın xarici siyasətinin təsiretmə problemləri üzrə əsərləri bir neçə qrupa bölmək olar.

Birinci qrupa Rusiya-İran münasibətlərinin daha əvvəlki mərhələlərinin müxtəlif aspektlərinin araşdırılmasına həsr olunmuş əsərlər daxildir. Bunların içində F.A.Abdullayevin, C.A.Ağayevin, P.P.Buşevin, A.A.Zonnerştal-Piskarskinin, M.S.İvanovun, N.Q.Kunakovanın, L.İ.Miroşnikovun, A.B.Reznikovun, İ.A.Yusupovun işlərini göstərmək olar.[1]

İkinci qrupa müasir dövrdə Rusiyanın xarici siyasətinin inkişafının ümumi problemləri üzrə əsərlər daxildir. Onlar ümumnəzəri və metodoloji nöqte-nəzərdən mühüm əhəmiyyət kəsb edir. Bunların içində A.L.Adamişinin, A.Q.Arbatovun, O.A.Arinin, E.M.Bajanovun, A.D.Djekşenqulovun, K.S.Hacıyevin, V.P.Kudinovun, İ.S.İvanovun, K.N.Kulmatovun, V.F.Linin, S.Lunevin, A.B.Malaşenko, D.Treninin, D.B.Malışevanın, E.M.Primakovun, V.Razuvayevin, A.A.Romanovun, A.J.Rudniskinin, K.Sorokinin, A.D.Şutovun, M.L.Titarenkonun, M.A.Xrustalyovun, A.Q.Zadoxinin[2] işlərini göstərmək olar. Bu müəlliflərin əsərlərində Rusiya və İran

---

[1] Абдуллаев Ф.А. Из истории русско-иранских отношений и английской политики в Иране в начале XIX века. Ташкент: ФАН, 1971, 135 с. , Агаев С.А. Иран в период политического кризиса 1920-1925 гг. М.: Наука, 1970, 270 с., Бушев П.П. История посольств и дипломатических отношений русского и иранского государств в 1586-1612 гг. М. : Наука, 1976, 478 с., Зоннершталь-Пискарский А.А. Международные торговые договоры Персии. М., 1931., Иванов М.С. Исламская революция в Иране: прошлое, настоящее, будущее. М.: ИСАА при МГУ, 1999,118 с., Кунакова Н.Г. К истории русско-иранских торговых отношений // Иран. История и современность. Сб. статей. М., 1983, 247 с., Мирошников Л.И. Английская экспансия в Иране (1914-1920). М.: Наука, 1981. - 320 с., Резников А.Б. Иран: падение шахского режима. М.: Политиздат, 1983. - 160 с., Юсупов И.А. Установление и развитие советско-иранских отношений (1917-1927). Ташкент: Фан, 1969, 227 с.

[2] Адамишин А.Л. Приоритетные направления внешней политикиРоссии. М., 2007, 411 с., Арбатов А.А. Безопасность: российский выбор М.: ЭПИцентр, 1999, 525 с.,Арин О.А.Двадцать первый век: мир без России. М.: Альянс, 2001, 352 с.; Электронная версия (исправленная), 2011, 344 с.,Бажанов Е.П. Приоритеты России в меняющемся мире. М.: Научная книга, 2000., Джекшенкулов А.Д. Новые независимые государства Центральной Азии в мировом сообществе. М.: Научная книга, 2000,Гаджиев К.С. Геополитика Кавказа. М., 2001.,Иванов И.С. Внешняя политика России в эпоху глобализации.М., 2006., Кудинов В.П. Международные позиции России на рубеже XX-XXI вв. М., 2008., Кулматов К.Н. Приоритеты внешней политики России и современные международные отношения.М., 2002.,Ли В.Ф. Теория международного прогнозирования. М., 2002.,.Лунев С.И. Вызовы безопасности южных границ России.//М.: МОНФ: ИЦНиУП, 2009., Малашенко А.Б., Тренин Д. Время юга: Россия в Чечне, Чечня в России. Моск. Центр Карнеги. М., 2002., Trenin Dmitri. "Russia Redefines Itself and its relations with the West"// The Washington Qurаterly, Volume 30, Number 2, Spring 2007, pp. 95-105, Малышева Д.Б. Конфликты в развивающемся мире, России и Содружестве Независимых Государств: религиозный и этнический аспекты. М., ИМЭМО РАН, 1997., Примаков Е.М. Мир без России? К чему ведет

dövlətləri arasında münasibətlərin inkişafında nailiyyətlərin və çətinliklərin xarakteri dəyərləndirilir, belə çətinliklərin aradan qaldırılması yolları müəyyən edilir. Rusiya müəlliflərinin, demək olar ki, əksəriyyəti dünyanın çoxqütblü olması nöqteyi-nəzərindən çıxış edir, Rusiya və İranın beynəlxalq münasibətlər sistemində müstəqil siyasət yürütmək qüdrətinə malik olmasını nəzərə alaraq onlarla siyasi və iqtisadi əlaqələrin genişlənməsində maraqlı olan digər dövlətlər arasında daha sıx əməkdaşlıq edilməsi və bununla yanaşı, həm də Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında terrorçu və digər ekstremist qüvvələrə qarşı birgə mübarizə aparılması zərurətini qeyd edir.

Bu müəlliflər qeyd olunan məsələlərin həllində İranı Rusiyanın təbii partnyoru qismində təsəvvür edirlər.

Üçüncü qrupa, müasir dövrdə Rusiya-İran münasibətlərinin aktual problemlərinin müxtəlif aspektlərinin təhlilinə həsr olunmuş (onların əksəriyyəti məqalə şəklindədir) əsərlər daxildir. Bunların içində M.R.Arunovanın, V.V.Makarenkonun, E.A.Orlovun, A.İ.Pılevin, V.İ.Sajinin, V.A.Uşakovun, A.Vatankanın[3] əsərlərini qeyd etmək olar. Bu müəlliflərin əsərlərində Rusiya-İran münasibətlərinin inkişafı ilə bağlı proseslər ümumi xarakterizə edilməklə yanaşı, bir çox əsərlərdə iki ölkə arasında mövcud olan əlaqələr həm də beynəlxalq münasibətlər nəzəriyyəsinin fundamental müddəaları baxımından təhlil edilir.

---

политическая близорукость. М.: ИИК «Российская газета», 2009. 239 с.,Разуваев В. Россия, ближнее и дальнее зарубежье Азии. М., 1997.,Романов А.А. Геостратегия: Россия и мир в XXI веке. М.,2005.,Рудницкий А.Ю. Внешняя политика современной России. М.,2006.,Сорокин К. Геополитика современности и геостратегия России. М.: РОССПЭН, 1996., Шутов А.Д. Постсоветское пространство. М.: Научная книга, 1999.,Титаренко М.Л. Россия лицом к Азии. М., 2004., Хрусталев М.А. Центральная Азия во внешней политике России. М., 2003., Задохин А.Г. Россия и Евразия. М., 1997.

[3] Арунова. М.Р. РФ – ИРИ. Политический диалог: 1999–2000 гг.//Иран: ислам и власть. Сб. статей. М., 2001, С.185-191, Макаренко В.В. Кто союзники России? Ментальность и геополитика: парадоксы политики безопасности России /раздел «Что может принести России военно-политический союз с Ираном?». М., 2000. , Орлов Е.А. Россия и Иран в XX веке (основные этапы взаимоотношений)//Иран: ислам и власть. Сб. статей. М., 2001., Пылев А. И. Иран и Россия как стратегические союзники: история и современное положение// Центр Геополитических Экспертиз(http://cge.evrazia.org/ ), 01.02.2003., Сажин В.И. Россия и Иран: партнерство или стратегический союз?//Россия на Ближнем Востоке: цели, задачи, возможности. Материалы конференции. М., 2001, Ушаков В.А. Ирано-российские отношения на пороге XXI в.//Восток и Россия на рубеже XXI века. Сб. статей. М., 1998., Ватанка Алекс. Российско-иранские отношения на грани пересмотра// Eurasianet. org//http://russian.eurasianet.org/departments/business/articles/eav032702ru.shtml, 27марта, 2002.

İranın elmi ədəbiyyatında da Rusiya-İran münasibətlərinin bir sıra nəzəri və tarixi aspektlərinin təhlili öz əksini tapmışdır. Bunların içində rus dilində yazılmış iran tədqiqatçısı Mehdi Sanainin əsərlərini qeyd etmək olar. Ümumiyyətlə götürdükdə müasir dövrdə İran və Rusiya siyasi əlaqələri barəsində müxtəlif işləri nəzərdən keçirdikdə belə bir nəticə meydana çıxır ki, həyata keçirilən araşdırma işləri bir tərəfdən xüsusi bir zaman çərçivəsində həyata keçirildiyindən bu əlaqələrdə baş verən yeni dəyişikliklər orada öz əksini tapmamışdır. Digər tərəfdən isə həmin araşdırmaların heç biri İran və Rusiya siyasi əlaqələrinin onları əhatə edən mühit arasında olan bəsit əlaqəni yaratmaq fikrində olmamalarıdır. Buna görə də müasir dövrdə İran və Rusiya siyasi əlaqələri mövzusunda baş verən araşdırmalarda zaman boşluğu və bu əlaqələrə kifayət qədər diqqət yetirilməməsi üzündən öz ətraf mühitinə təsir göstərən bir element olması nəzərdən qaçırılmışdır.

İran tədqiqatçısı Məhəmməd Kazim Səccadpur "İran və Rusiya əlaqələrində beynəlxalq element" adlı kitabında haqlı olaraq qeyd edir ki, İran və Rusiya əlaqələrində aşağıdakılardan ibarət olan nisbətən sabit nümunələr tapmaq olar:

1) Dövlətin ideologiyası və kimlər tərəfindən idarə edilməsindən asılı olmayaraq İran dövləti güclü olduqda ruslar onlarla yaxşı əlaqələr yaratmışlar.

2) İran dövləti zəifləyən kimi ruslar İranın daxili vəziyyətindən yararlanmağa çalışmışlar.

3) Rusiya dövləti zəifləyən kimi İranla əməkdaşlıqda maraqlı olmuşdur.

4) Rusiyanın mənafeləri tələb etdikdə onlar İran əleyhinə Qərblə əməkdaşlıqdan çəkinməmişlər.

İran tədqiqatçısı İlahi Kulayin "Rusiya Federasiyasında siyasət və hakimiyyət" kitabında məsələyə bu cür yanaşır: "Rusiyaya görə İranla əməkdaşlıq etmək gəlir əldə etməkdən daha çox Rusiyanın nüvə resursları üçün əhəmiyyət daşıyır. O cümlədən çeçen məsələsi və Amerikaya təzyiq vasitəsi kimi Fars körfəzində İranın mövqeyi də əhəmiyyət daşıyan mövzular sırasındadır. Habelə Rusiyanın hərbi ekspertlərinin İranda olması və İran hərbçilərinin Rusiyaya müxtəlif kurslara ezamiyyətə göndərilməsi də mühüm məsələlərdir. Rusiya rəhbərlərinə görə Rusiyanın Orta Şərq münasibətlərinin tənzimləyicisi kimi İran müsbət rol oynaya bilər. İki dövlət arası iqtisadi, siyasi və hərbi əməkdaşlıqlar günü-gündən artsa da, mövcud potensial baxımdan bu inkişaf qənaətedici hesab edilə bilməz. Səbəbi isə Rusiyanın texniki və iqtisadi potensialını düzgün qiymətləndirməmək, siyasi iradənin olmaması və hər iki dövlətdə qərbyönümlü meyillərin artmasını göstərmək olar. Xəzər dənizindən faydalanma məsələlərinin həll edilməməsi iki ölkənin əlaqələrinin genişlənməsinə kölgə salmışdır. Bu sahədə İranın mənafeyi təmin edilmədiyi şəraitdə siyasi istiqamətlər bu əlaqələrə təsir edəcəkdir. Rusiyanın Qərb ilə olan mürəkkəb əlaqələri heç bir zaman Moskvanın İrana görə Amerika və Avropaya qarşı çıxmayacağının göstəricisidir. Çünki onların mənafe və əlaqələri o qədər bir-biri ilə çulğalaşmışdır ki, fikir ayrılığı olduğu şəraitdə Rusiya onlara qarşı çıxmayacaqdır".

İranın Tehran Universitetinin beynəlxalq münasibətlər üzrə mütəxxisis alimi Davud Bavənd Türkiyənin "Hürriyət" qəzetinə müsahibəsində qeyd edir ki: "Bütün

xarici siyasi istiqamətlərimizi Rusiya ilə olan əlaqələr üzərində qurmamalıyıq. Başqa sözlə bütün yumurtaları bir səbədə yığmamalıyıq. Ənənəvi olaraq Rusiya diplomatiyası ticarət üzərində qurulmuşdur. Əgər bunun müqabilində özü üçün bir sıra imtiyazlar ala bilsə mövqeyini dəyişdirməkdən çəkinməyəcəkdir. Rusiya Xəzər, İrandan Mərkəzi Asiya və Qafqaza enerji daşıyıcılarının ötürülməsi məsələlərində bizimlə həmfikir deyildir”.

İran parlamentinin “İran-Rusiya dostluq qrupunun” sədri Mehdi Sənaininin isə problemlə bağlı digər bir nəzəri vardır: “Müasir beynəlxalq sistemdə dövlətlər öz təhlükəsizliyini bir dövlət üzərində qurmurlar. Rusiya kimi bir ölkə də hamı ilə əlaqələr qurur.İki ölkə arasında isə qarşılıqlı öhdəçilik yoxdur.Bunun mənası isə o demək deyildir ki, Rusiya Amerikanın siyasətinə tabe olduğundan zamanı gəldikdə İranı Amerikanın qarşısında tək qoyacaqdır. Rusiyanın Amerikanın yürütdüyü siyasətdən narazı olması və Amerikanın hegemonluğuna qarşı olması şübhəsizdir.Amma Rusiya Amerikanın hegemonluğuna qarşı nə qədər müqavimət göstərə bilər və bu sahədə İran və Rusiyanın mövqelərinin nə qədər üst-üstə düşməsi bir qədər qeyri-müəyyəndir. İran müxtəlif diplomatik gedişlər etməklə bu oyuna rəng qata, İran və Rusiyanın daha çox birlikdə olmasına yardımçı ola bilər. Bunun üçün isə İran Amerikanın qarşısında Rusiyanın müqavimət göstərməsi üçün diplomatik oyunlarını davam etdirməlidir. Məsələyə kompleks yanaşdıqda dünyanın oyun meydanında İran və Rusiya əlaqələri o səviyyədə deyildir ki, Rusiya İranla olan əlaqələrini görməzdən gəlsin. Amma bu ciddi bir məsələ olduğu üçün ola bilsin ki beynəlxalq şərtlər dəyişdiyi təqdirdə ruslar İrana qarşı öz baxışlarını dəyişsinlər. Bunun üçün İran bir tərəfdən Rusiyanın Şərq və İslam dünyasına olan istiqamətlərini gücləndirməli, digər tərəfdən isə Rusiya məsələləri üzrə olan mütəxəssis kadrlar yetişdirməklə iki ölkə arası hərtərəfli əlaqələrin güclənməsinə çalışmalıdır” .

Siyasi elmlər və beynəlxalq münasibətlər üzrə mütəxəssis Rəsul Musəvinin “Trend” agentliyinə verdiyi mühasibəsində Rusiya bir neçə qütblü beynəlxalq sistemin tərəfdarı, səkkizlər qrupunda iqtisadi rola malik, Birləşmiş Millətlər Təşkilatının təhlükəsizlik şurasının üzvlərinin artması ilə müxalif mövqedə duran bir ölkə olması bildirilir. Moskvaya görə mühüm təhdidlər aşağıdakılardan ibarətdir:

1) Terrorizm.
2) Kütləvi qırğın silahlarının yayılması.
3) Beynəlxalq və regional münaqişələr.

Rusiya İranı nüvə silahı astanasına qədər qəbul edir və Karaqanovun sözü ilə desək “əgər İran nüvə dövlətinə çevrilərsə, Rusiya raketləri İrana tərəf istiqamət alacaqdır.”Rusiya Xəzər dənizində İranla əməkdaşlıq etsə də, amma enerji sahəsində İranın rəqibidir.İki ölkənin ticarət əlaqələri də adi xarakter daşıyır.Ruslar bizim Şanxay əməkdaşlıq təşkilatına üzv olmağımız qarşsında ən böyük maneədir.Amma eyni halda Rusiya ilə strateji əməkdaşlıq etmək olar.

İran tədqiqtçısı Mehdi Səfəviyə görə, ötən dörd dödr yüz il ərzində bu ölkələr arasında münasibətlər heç vaxt indiki səviyyədə olduğu kimi yaxşı olmamışdır. Onun fikrincə hazırki mərhələdə İran Rusiyaya rəqib kimi baxmır. Əgər Rusiya

təhlükəsizlik və xüsusilə də iqtisadi sahədə İrana birmənalı olaraq cavab verərsə o zaman qarşılıqlı əməkdaşlıq edilə bilər. İran və Rusiya əlaqələri böyük güclər tərəfindən həssaslıqla qarşılansa da tarixi, coğrafi və texniki baxımdan bir sıra əngəllər də olmamış deyildir. Rusiya dünyanın mühüm hərbi dövlətlərindən biri olduğundan İran üçün iqtisadi, siyasi və coğrafi baxımından əhəmiyyət daşıyır. İran İslam Respublikasının Xəzər dənizində xüsusi ilə də neft-qaz sektorunda sənaye və donanmasını gücləndirmək planlarının icrasını sürətləndirməsi, təkcə iqtisadi cəhətdən deyil həm də siyasi və təhlükəsizlik baxımından da nəzərə alınmalıdır.

Tədqiqatda Rusiya-İran münasibətlərinin ayrı-ayrı aspektlərinin tədqiqinə həsr olunmuş Azərbaycan müəlliflərinin əsərlərindən də da istifadə edilmişdir. Bunların içində A.Abbasbəylinin, Ə.M.Həsənovun, M.C.Qasımovun, Ə.Q.Səfərli və H.C.Əlibəylinin, P.Q.Darabadinin, C.P.Həsənlinin, İ.Musayevin, N.İ.Nəsibzadənin, S.M.Onullahinin, R.İsmayılın, N.Axundovanın, A.Bağırovanın, X.İbrahimlinin, M.Baxışovun[4] işlərini göstərmək olar. Bundan əlavə, Rusiya-İran əlaqələrinin müxtəlif aspektlərinin araşdırılmasına həsr olunmuş bir sıra dissertasiyalardan da istifadə olunmuşdur. Bunlardan D.B.Salixovanın "XIX əsrin ikinci yarısında Rusiya-iran münasibətləri", A.A.Əliyevin "İran İslam Respublikasının digər Xəzəryanı ölkələrlə əməkdaşlığı", T.Ə.Davudinin "Müasir dövrdə İran-Azərbaycan münasibətlərinin əsas istiqamətləri", A.H.İftixarinin "İran İslam Respublikasının Qafqaz siyasəti. (1991-2005-ci illər)", A.M.Mirabdullayevin "Rusiyanın postsovet məkanında geostrategiyası" adlı dissertasiyalarını göstərmək olar.

Hazırki elmi tədqiqatın əsas məqsədi bu boşluqları müəyyən dərəcədə aradan qaldırmaq və müasir dövrdə İran və Rusiya arasında münasibətlərin mahiyyətini və məzmununu sistemli, kompleks şəkildə tədqiq etmək və praktiki əhəmiyyətini göstərməkdən ibarətdir.

**Tədqiqatın predmeti.** Müasir dövrdə Rusiya Federasiyası və İran İslam Respublikası arasına dövlətlərarası əlaqələrin xüsusiyyətlərini, onların Yaxın və Orta Şərq məkanında və bu məkana daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında dövlətlərarası münasibətlər sistemində yerini və əhəmiyyətini müəyyən etmək bu tədqiqatın predmetini təşkil edir və dissertasiyada bununla bağlı müddəalar öz əksini tapmışdır.

---

[4] Abbasbəyli A. N. Müasir dünyanın siyasi mənzərəsi. B., 2008.- 372 c., Mahmudov Y. M. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. I cild:1639-cu il Səfəvi-Osmanlı Qəsri-Şirin sülhü - 1828-ci il Türkmənçay traktatı. 2009., Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.: Azərbaycan nəşriyyatı, 2005., Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, Gənclik,1996., Musayev İ.M. Azərbaycanın xarici siyasəti: Azərbaycan beynəlxalq münasibətlər sistemində /mart 1917-aprel 1920 il. Bakı: BDU, 2001. – 291 s., Mirabdullayev A.M. Rusiyanın postsovet məkanında geostrategiyası. B., Elm, 2008. - 332 c., Onullahi S.M. Erməni millətçiləri və İran. Bakı:Maarif, 2002. -88 s., İsmayıl R., Axundova N., Bağırova A. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. Bakı, "Adiloğlu" nəşriyyatı, 2004,656 s.,

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi müqayisəli metod və sistemli yanaşma üsulundan istifadə etməklə müasir dövrdə İran-Rusya dövlərərarası münasibətləri təcrübəsinin ümumiləşdirilməsi və bu iki dövlət arasında münasibətlərin səmərəli inkişafının perspektivlərinin öyrənilməsi, bu proseslərə kömək edə bilən və ya əksinə olaraq, bu prosesləri əngəlləyə bilən amillərin müəyyən edilməsindən ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqatda konkret olaraq aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

-İran və Rusiya arasında siyasi əlaqələrin əsas formalaşma və inkişaf mərhələləri tədqiq olunmuşdur;

-İranda İslam inqilabından sonra Sovet İttifaqının süqutuna qədər olan dövrdə İran və Rusiya əlaqələrinin təhlili verilmişdir;

-Orta Şərq məkanında və bu məkana daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında formalaşmış yeni beynəlxalq münasibətlər sistemi tədqiq olunmuşdur;

-Orta Şərq məkanı və bu məkana daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regional beynəlxalq münasibətlər sistemində İranın və Rusiyanın yeri təhlil edilmişdir;

-Müasir dövrdə İran və Rusiyanın ümumi siyasi mənafelərinin əsasları müəyyənləşdirilmişdir;

-Müasir dövrdə İran və Rusiya əlaqələrinin inkişaf dinamikası araşdırılmışdır;

-İran və Rusiyanın iqtisadi əməkdaşlığının əsas ölçüləri və onun siyasi nəticələri təhlil edilmişdir;

-İran və Rusiyanın siyasi əməkdaşlıqları qarşılığında qərbin yürütdüyü siyasət tədqiq edilmişdir;

-Rusiya və İran arasına dövlətlərarası əlaqələrin xüsusiyyətləri müəyyənləşdirilmişdir;

-Rusiya və İran arasında əməkdaşlığı stimullaşdıran geosiyasi faktorlar aşkarlanmışdır;

-Xəzər dənizinin bölüşdürülməsi ilə bağlı müzakirələrin müasir vəziyyəti və onun rusiya-iran münasibətlərinə təsiri araşdırılmışdır;

-İran və Rusiya əlaqələrinin Rusiya-Azərbaycan, İran-Azərbaycan dövlətlərarası münasibətlərinə təsiri təhlil edilmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya işinin yazılmasında müasir beynəlxalq və regional dövlətlərarası münasibətlər sahəsinə aid həyata keçirilən tədqiqat işlərində tətbiq edilən müxtəlif elmi metodlardan istifadə olunmuşdur.Ümumi elmi metodlarla bərabər, başqa elmi metod və üsullardan da istifadə olunmuşdur. Müxtəlif tarixi dövrlərdə İran və Rusiya arasında münasibətlərin səviyyəsinin araşdırılmasında tarixi, müqayisəli metodlardan, Orta Şərq məkanına daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında yeni dövlətlərarası münasibətlər sisteminin tədqiq edilməsində sistemli yanaşma metodundan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycan siyasi elmində müasir dövr İran-Rusiya siyasi əlaqələrinin inkişafının sistemli şəkildə tədqiq və təhlil edilməsinə cəhd edilmişdir.

Dissertasiyada ilk dəfə olaraq elmi dövriyyəyə bu mövzuya aid bir sira yeni İran mənbələri daxil edilmişdir. Dissertasiya işinin elmi yeniliyini özündə əks etdirən və müəllif tərəfindən müdafiəyə çıxarılan elmi müddəalar aşağıdakılardır:
-Müxtəlif tarixi dövrlərdə İran və Rusiya arasında münasibətlərin səviyyəsinin müqayisə edilmiş, bu iki dövlət arasında əlaqələrin inkişafı müəyyənləşdirilmişdir;
-SSRİ-nin süquta uğraması nəticəsində Orta Şərqdə və bu məkana daxil olan Cənubi Qavkaz və Mərkəzi Asiya regionlarında əmələ gələn yeni reallıqlar, geosiyasi və geostrateji vəziyyət ilk dəfə olaraq dərin və hərtərəfli təhlil olunmuşdur;
-Orta Şərq məkanında baş vermiş dəyişikliklər nəticəsində İran regional güc mərkəzlərindən birinə çevrilmiş və bütövlükdə bu məkanda onun nüfuzu və təsiretmə imkanlarının artması amilləri araşdırılır;
-Orta Şərq məkanına daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında formalaşan yeni dövlətlərarası münasibətlər sisteminin vəziyyətinə təsiredici amillər aşkarlanmışdır;
-İran və Rusiya arasında siyasi əlaqələrin səviyyəsinə və inkişafına təsir edən vacib amillərdən biri də NATO-nun Şərqə doğru genişlənməsidir. Bu məsələdə hər iki dövlətin üst-üstə düşən strateji mənafeləri müəyyənləşdirilmişdir;
-İran və Rusiya arasında münasibətlərin Rusiya-Azərbaycan və İran-Azərbaycan dövlətlərarası münasibətlərinə təsir vasitələri göstərilmişdir;
-İran və Rusiya arasında iqtisadi, hərbi, elmi, texniki və s. əməkdaşlığın genişlənməsi, bütövlükdə İran və Rusiya arasında siyasi əlaqələrin inkişafına müsbət təsir edən vacib amil kimi səciyyələndirilmişdir;
-Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsində İran və Rusiya arasındakı ziddiyyətlərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsinə cəhd göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiyada dünyada baş verən son qlobal dəyişiklikləri nəzərə almaqla İran-Rusiya münasibətlərinin mahiyyətininin tədqiq edilməsi, İran-Rusiya münasibətlərinin Orta Şərq məkanında və bu məkana daxil olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında yeni geosiyasi reallıqlar əsasında beynəlxalq münasibətlər sisteminin formalaşmasına və inkişafına təsirinin kompleks şəkildə araşdirilması, bu iki dövlət arasında münasibətlərin bu regionlarda yerləşən dövlətlərin və bu regionlarda xüsusi maraqları olan digər dövlətlərin xarici siyasətinə təsirinin tədqiq edilməsi bu elmi işin nəzəri-praktiki əhəmiyyətini müəyyənləşdirir. Tədqiqat işində irəli sürülən bir sıra elmi mülahizələr və əldə edilən nəticələr tədqiq edilən problemlə bağlı yeni araşdırma istiqamətlərini müəyyənləşdirir. Dissertasiya materialları İran və Rusiya xarici siyasət və diplomatiyasına aid ümumləşdirici əsərlərin, ali tədris ocaqlarında dərs vəsaitlərin, xüsusi tədris proqramlarının hazırlanmasında əhəmiyyətli ola bilər. Bununla yanaşı, dissertasiyanın materiallarından xarici siyasətlə məşğul olan dövlət orqanlarının praktiki fəaliyyətində də istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunda hazırlanmış, həmin institutda

geniş müzakirə edilərək müdafiəyə tövsiyyə edilmişdir. Dissertasiyanın əsas müddəaları elmi məqalə şəklində elmi jurnallarda nəşr edilib və bununla yanaşı, bir sıra konfranslarda məruzə olunaraq konfrans materialları şəklində çap olunub.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, özündə doqquz yarımfəsli birləşdirən üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş hissəsində** seçilmiş mövzunun aktuallığı ətraflı əsaslandırılmış, onun işlənmə dərəcəsi sistemli şəkildə səciyyələndirilərək təhlil edilmiş, tədqiqatın predmeti, məqsəd və vəzifələri, həmçinin, nəzəri və praktiki əsasları və əhəmiyyəti müəyyənləşdirilmiş, elmi yeniliyi, müdafiəyə çıxarılan elmi müddəalar, nəticələrin aprobasiyası göstərilmişdir.

Dissertasiya işinin **"İran -Rusiya əlaqələrinin tarixi ənənələri və geosiyasi faktorlar"** adlanan I fəsli 3 yarımfəsildən ibarətdir.

**I fəslin 1-ci yarımfəsilində** İran və Rusiya arasında siyasi əlaqələrin yaranma tarixinin əsas mərhələləri nəzərdən keçirilir.

Tarixçilərə görə, müasir İran və Rusiya ərazilərində yaşayan tayfalar arasında olan əlaqələr miladi tarixi ilə üçüncü əsrə gedib çıxır. İslamın yayıldığı ilk zamanlarda rus hərbi dəstələri bir neçə dəfə Qafqaza və İranın cənubunda yerləşən Təbəristan və Absukun adlı ərazilərinə qarət məqsədilə hücum etmişlər.

Yarımfəsildə qeyd edilir ki, İran və Rusiya arasında ilk təmaslar 1592-ci ildən olmuşdur. Əlaqələrin başlanğıc mərhələsi isə şah Abbasın Osmanlı ordusuna qalib gəlib Təbrizi ələ keçirdikdən sonra Çar Boris Qodunovun şah Abbasa xitabən yazdığı və 15 dekabr 1603-cü ildə şah Abbasa çatan bir məktubu ilə başlanması göstərilir. Bu yarımfəsildə həmçinin Rusiya imperiyası və İran arasında xarici siyasət vəzifələrinin həyata keçirilməsi təhlil edilərkən mühüm məqamlara: (1828-1836 illərdə) Türkmənçay sülh müqaviləsi və İranda Rusiya siyasətinin formalaşmasının yeni istiqamətləri; 1837-1838 illərdə Rusiya və Herat böhranı; birinci Herat (1839-1847 illərdə) böhranından sonra Rusiyanın İran siyasəti; (1848-1854 illərdə) Şərq məsələsinin kəskinləşməsi dövründə Rusiyanın İran siyasətinə tarixi ekskurs edilir.

II Dünya Müharbəsi başladıqdan sona İran özünü bitərəf elan etsə də, Almaniya ilə öz yaxın əlaqələrini davam edirdi. Almaniya SSRİ-yə hücum etdikdən sonra İranın strateji mövqeyi nəzərə alınaraq SSRİ və Böyük Britaniya hərbi qüvvələri İrana daxil oldular. SSRİ 1921-ci il dostluq müqaviləsinə istinad edərək İran torpağını işğal etdi və Rzaşah hakimiyyətdən devrildi. Müharibədən sonra müttəfiq qoşunların İranı tərk etmək məsələsi gündəmə gəldi. Hətta Böyük Britaniya və ABŞ öz qoşunlarını İrandan çıxardacaqlarını bildirsələr də, SSRİ öz qoşunlarını çıxartmaq istəmirdi. Müttəfiq dövlətlərlə danışıqlarda SSRİ bir sıra avropa dövlətlərinin öz təsir dairəsinə keçirilməsi qarşısında, İrandan öz qoşunlarını çıxartmağa razı oldu.5 aprel 1946-cı ildə Qırmızı Ordunun İranı tərk etməsi haqqında razılaşma imzalandı.

Soyuq müharibə dövründə İran və SSRİ əlaqələrinin yüksəlib enməsi faktiki olaraq Şərq ilə Qərbin əlaqələrindən asılı idi. İran və ABŞ arasında ikitərəfli hərbi əməkdaşlıq SSRİ-ni narahat edirdi. 1961-ci ildə N.Xruşov ilə Kennedinin görüşməsindən sonra İran ABŞ-nın tövsiyəsi əsasında SSRİ ilə əlaqələri yaxşılaşdırmağa başladı. Şah Kreml rəhbərlərinə söz vermişdi ki, İran torpağından üçüncü heç bir ölkənin SSRİ əleyhinə çıxmasına imkan verməyəcəkdir. 1960-cı illərdə İran və SSRİ əlaqələri çox yüksək səviyyəyə çatır.Belə ik, Misiri çıxmaq şərti ilə heç bir dövlət İran qədər SSRİ-dən yardım ala bilməmişdi.

Məhəmməd Rza şah 1965-ci ilin may ayında Moskvaya səfəri zamanı İsfahanda polad və Ərakda maşınqayırma zavodlarının tikilməsinə dair texniki və iqtisadi əməkdaşlıq haqqında saziş bağlanır. Bununla bərabər, iki ölkə arasında elmi və mədəni əlaqələr inkişaf etməyə başlanır. İranla sənaye, texniki, ticari və iqtisadi əlaqələrin yaradılmasına üstünlük verilir.

**I fəslin 2-ci yarımfəslində** İranda islam inqilabından Sovet İttifaqının süqutunaqədər olan dövrdə iki ölkə arasında siyasi əlaqələr təhlil edilir.Xüsusi qeyd edilir ki, islam inqilabının qələbə çalması nəticəsində İran bir çox dünya ölkələri ilə olan qarşılıqlı əlaqələrini yenidən nəzərdən keçirtdi. İran və SSRİ arasında əlaqələr xüsusi ilə də Haşimi Rəfsəncaninin Moskva səfərindən sonra dəyişir. Xüsusi ilə də son illərdə bu əlaqələr hər iki dövlət başçıları tərəfindən strateji əlaqələr kimi nəzərdən keçirilməyə başlanmışdır. İki ölkə arasında yeni siyasi münasibətlər bir sıra xüsusiyyətlərlə səciyyələndiyi səbəbdən onların üzərində daha ətraflı dəyanmaq məqsədəmüvafiqdir.

İranda islam inqilabı baş verən zaman Sovet İttifaqı ehtiyatlı reaksiya göstərirdi. 1978-ci ilin oktyabr ayının sonundan etibarən isə Sovet İttifaqının kütləvi informasiya vasitələri şah rejiminin devrilməsinin labüdlüyü haqqında söhbət getmir, sadəcə sosial ziddiyyətlər, bürokratiya və müxalifətin məğlubiyyəti haqqında məqalələr dərc etməklə kifayətlənirdilər. Sovet İttifaqının rəhbərlərinə görə İran Islam inqilabı anti-amerika və anti-imperialist bir inqilab idi. Onlar inqilabın qələbə çalmasından sonra Amerikanın İranda olan nüfuzuna böyük zərbə dəyəcəyini və SSRİ-nin nüfuzunun güclənəcəyini gözləyirdilər. İranda şah hakimiyyəti devrildikdən sonra Sovet İttifaqı Pakistanın dalınca ölkənin rəsmi mövqeyini dəstəkləyən ikinci ölkə oldu.

Qərbin İrana olan təzyiqləri başlandıqdan sonra SSRİ özünün İranla əlaqələrini yaxşılaşdırmağa başladı. 1980-1981-ci illərdə SSRİ İranla olan ticarət dövriyyəsini iki dəfə artırdı.

Sovet İttifaqının dağılması astanasında İran və SSRİ arasında siyasi əlaqələrinə toxunaraq qeyd etmək lazımdır ki, M.S.Qorbaçov hakimiyyət başına gəldikdən sonra İrana qarşı SSRİ-nın xarici siyasətində heç bir əsaslı dəyişiklik baş vermədi. SSRİ 17 iyul 1988-ci il BMT Təhülkəsizlik Şurasının qətnaməsinin İran tərəfindən qəbul edilməsini təqdir etdi və İranın bu hərəkətini İran və İraq münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində mühüm bir addım kimi qiymətləndirdi. Bununla paralel olaraq, 1987 - 1989-cu illərdə SSRİ rəhbərliyi soyuq müharibənin başa çat-

ması istiqamətində fəalyyət göstərirdi. SSRİ BMT-nın Təhlükəsizlik Şurasında598 saylı qətnaməyə səs versədə, Moskva Amerika qədər İran və İraq müharibəsi ilə ciddi maraqlanmırdı. Çünki SSRİ rəhbərliyidünyanın diqqətini Əfqanıstan böhranından yayındırmaq, İranın əfqan mücahidlərinə kömək göstərə bilməməsinə çalışırdı.

Qeyd etmək lazımdır ki, 1990-ci illər başlanandan sonra SSRİ respublikaları müstəqilliyə meyl etməyə cəhd etdikdə, İran regionun sabitliyini qorumaq, İran ilə Mərkəzi Asiya və Qafqazın müsəlman republikalarının vətəndaşları arasında əlaqə yaratmaq siyasəti yürütmyə başladı.

**I fəslin 3-cü yarımfəsilində** müasir dövrdə İran və Rusiya əlaqələrinin dinamikası tədqiq edilmişdir. İran və Rusiya əlaqələri SSRİ dağıldıqdan sonra iki fərqli mərhələdə özünü büruzə vermişdir.

1991-ci ildən 1993-cü ilə qədər davam edən bu mərhələdə Rusiya İranla bağladığı 1989-cu il hərbi müqaviləsinə sadiq qaldı. 1993-cü ildən etibarən Rusiyanın xarici siyasətində dəyişikliyin baş verməsi, Qərbi dəstəkləyən qüvvələrin zəifləməsi, Rusiya rəhbərlərinin baxışında Avrasiyaçılıq və milli maraqların güclənməsi İrana qarşı aparılan siyasətdə müəyyən dəyişikliyə gətirib çıxardı. Rusiya və Qərb arasında yaranan müəyyən soyuqluq və regional təhdidlərin artmasından sonra iki ölkənin əlaqələri yaxşılaşmağa başladı. Tehranın Mərkəzi Asiya və Qafqaz məsələlərində apardığı siyasətini bir sıra analitiklər "gül dəstəsi siyasəti" adlandırmağa başladılar. Rusiya buna görə dostluq mövqeyi seçdi. O zaman İranın xarici işlər naziri Əli Əkbər Vilayəti Mərkəzi Asiya ölkələrindən qayıdandan sonra bildirdi ki, İran bu ölkələrə "Moskva qapısından" daxil olacaqdır. Bu məsələ İranın bu ölkələrə İslam inqilabı idxal edəcəyi qorxusunu aradan qaldırdı.

1990-ci illərdə İranın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ, Tacikistan, Çeçenistan və Əfqanıstan kimi məsələlər haqqında ərəb dövlətlərindən, Pakistan və Türkiyədən fərqli bir mövqe tutması nəticəsində Rusiya rəsmiləri daha İranın Moskva üçün təhlükə yaratmadığı qənaətinə gəldilər. Buna görə də 1993-cü ildən başlayaraq İran və Rusiyanın ikitərəfli əlaqələri dəfələrlə "strateji" əlaqələr kimi qeyd edilmişdir. Rusiya və İran arasında əlaqələr yüksələn xəttlə inkişaf etmiş, qarşılıqlı olaraq dövlət rəsmiləri arasında görüşlər keçirilmişdir.

Rusiya tədqiqatçıları D.Trenin və A.Alashenkonun fikrincə dünyanın bir neçə qütbə bölünməsi, Rusiyanın belə bir qütblərdən birinin olması və İran Prezidentinin mədəniyyətlərin dialoqu fikirlərinin səslənməsinin biri-birilə uyğunluğu və bağlılığı vardır.

40 il müddət keçdikdən sonra ilk dəfə 2007-ci ilin 16 oktyabrında Xəzər hövzəsi ölkə başçılarının Zirvə görüşü çərçivəsində Rusiya Prezidenti V.Putinun İrana gəlməsi, İran və Rusiya arasında əlaqələr baxımından çox önəmli idi. Bu görüşdə hər iki ölkə rəhbəri neft-qaz sektoru, nüvə enerjisi, təyyarəqayırma, bank və nəqliyyat sahələrində ikitərəfli əməkdaşlığı inkişaf etdirməyi qərara aldılar. Hər iki tərəf öz növbəsində qaz-neft sektorunda özlərinin həyata keçirdiyi ticarət siyasətlərini uyğunlaşdırmağı və "Cənub Pars" neft yatağından faydalanmaqda Rusiyanın iştirakının zərurətinə təkid etdilər. Habelə, iki tərəf Buşəhr stansiyasının müqavilədə

qeyd edilən müddətdə tamamlanacağını qəbul etdilər. Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, konsulluq əməkdaşlığı, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi problemlərin həll edilməsi, “Kasfor” hərbi qüvvələrinin yaradılması, Mərkəzi Asiya və Qafqaz məsələlərində əməkdaşlıq edilməsi və, habelə, Şanxay əməkdaşlıq təşkilatı çərçivəsində əməkdaşlıqlarının artırılması məsələləri razılaşdırıldı. V.Putin və Əhmədi Nejad problemlərin həllində zor tətbiq etməyə qarşı olduqlarını və dövlətlərin müstəqilliyi və ərazi bütövlüyünə hörmətlə yanaşdıqlarını bildirdilər. İran və Rusiya terrorizmin bütün formalarını pisləyərək eyni zamanda bu terrorun bir millətin, bir mədəniyyətin və ya dinin də ayağına yazmağın düzgün olmadığını bildirdilər. Nəhayət onlar BMT-nin antiterrorizm siyasəti strategiyasının icra edilməsində sıx əməkdaşlıq edəcəklərinə söz verdilər. Qeyd etmək lazımdır ki, ötən illər ərzində olduğu kimi heç vaxt iki ölkənin əlaqələri bu qədər yüksək səviyyədə olmamışdır.

Qərbyönümlü D.Medvedyev Rusiyanın prezidenti seçildikdən sonra iki ölkə arasında münasibətlər bir qədər zəiflədi. Bu əlaqələrin nisbətən zəifləməsində isə 2009-cu il İranda keçirilən prezident seçkiləri zamanı baş verən hadisələr və Rusiya əleyhinə verilən şüarlar da öz təsirini göstərməmiş deyildir. Rusiya bu hadisələr zamanı altı ay ərzində üç bəyanat verdi. Birinci bəyanatda Rusiya İranın daxili işlərinə qarışmayacağını bildirdi. İkinci bəyanatda Rusiya bu hadisələr zamanı İranı insan hüquqlarına riayət etməyə səslədi. Üçüncü bəyanatda isə bir qədər də irəli gedərək İranı dinc əhaliyə qarşı zorakılığı dayandırmağa çağırdı.

Bütün bunlara baxmayaraq İran və Rusiya əlaqələri normal axarı ilə davam edir. Moskva Vaşinqtonun İran əleyhinə olan birtərəfli sanksiyalarına qarşı çıxır və Buşəhr nüvə stansiyasını işə salınmasına yardım etdi. Amma BMT Təhlükəsizlik Şurasının İran əleyhinə çıxardığı 1929 saylı qətnaməsinə Rusiyanın səs verməsi, İran və Rusiya rəhbərlərinin bir-birinə qarşı ünvanladığı sərt çıxışlar və sonda isə Rusiyanın C-300 müdafiə raketlərini İrana verməkdən imtina etməsi iki ölkə arası əlaqələrini pisləşdirən amillərdəndir.

“**Müasir dövrdə İran və Rusiyanın ümumi siyasi mənafelərinin əsasları**” adlanan II fəsil üç yarımfəsildən ibarətdir.

Birinci **yarımfəsildə** beynəlxalq münasibətlər sistemində İranın və Rusiyanın yeri araşdırılır. XX əsrdə beynəlxlaq sistem qloballaşdı, buraya Amerika və Yaponiyanın daxil olması ilə Avropadan kənara çıxdı. II Dünya Müharibəsindən sonra beynəlxalq sistem ikiqütblü oldu və SSRİ dağılana qədər davam etdi. Soyuq müharibədən sonra beynəlxalq sistem haqqında hələ M.Qorbaçov SSRİ dağılmazdan öncə müjdə verərək “qarşılıqlı asılılıq dünyası” olacağını bildirmişdi. Amma SSRİ dağılandan sonra Buş, ABŞ rəhbərliyi altında, “yeni bir dünya sistemi” yarandığını iddia etdi. B.Klinton daha çox beynəlxlaq qurumların çərçivəsində ABŞ rəhbərliyi ilə diqtə edilən “beynəlxalq liberalizmin” yaradılmasına çalışdı. 11 sentyabr hadisələrinin ən önəmli nəticələrindən biri də Amerikanı hegomon bir ölkəyə çevirməkdən ibarət idi. Nəticə etibarı ilə Rusiya, Çin, Avropa ölkələri və Hindistan kimi bir çox ölkələr “”terrorizmi” bir təhlükə olaraq göstərməyə başladılar Bundan

sonra ABŞ beynəlxalq siyasətdə yeni qlobal tərəfdaşların rəhbəri kimi çıxış etməyə başladı. Bu hadisə Rusiya və ABŞ-nın terrorizmlə mübarizə şüarı altında birləşməsinə səbəb oldu.

Qlobal əlaqələr sferasında İran və Rusiyanın bir-birinə baxışı sualına cavab vermək üçün bir neçə məsələyə diqqət yetirmək lazımdır. Birincisi, Rusiyaya hələ də super bir güc olmaq üçün illərlə vaxt lazımdır. Əlbəttə, bu dövlət nüvə dövləti olduğu üçün öz ətrafında baş verən proseslərə təsir edə bilir və dünya miqyasında müəyyən mənada rol oynaya bilir. Bununla yanaşı, Rusiya texnologiya, işsizlik, yoxsulluq, cinayətkarlıq və iqtisadi pərakəndəlik kimi məsələlərdən əziyyət çəkən bir ölkədir. Buna görə də bir tərəfdən Rusiyanın nüvə qüdrəti sıyahısında yer alması, BMT Təhlükəsizlik Şurasının üzvü olması, dünyanın səkkiz sənaye ölkəsinin sırasında yer alması və dünya liderlərinin konfranslarında iştirak etməsinə baxmayaraq, onun hazırki iqtisadi durumu hərbi və siyasi nüfuzu ilə üst-üstə düşmür. Hətta müəyyən sahələr və parametrlər baxımından Rusiya az inkişaf etmiş ölkə səviyyəsinə qədər enmişdir Buna görə də Rusiya əgər region ölkələri ilə əlaqədə iqtisadi qütbə çevrilmək istəyirsə, İran kimi ölkələrin əməkdaşlığından da istifadə etməlidir.

İran və Rusiya əlaqələrinin perspektivi haqqında digər bir məsələ bundan ibarətdir ki, bu iki ölkənin əlaqələrində beynəlxalq amil təyinedici faktor kimi çıxış edəcəkdir. Çünki hər iki ölkənin strateji mövqeyi və əlverişli coğrafi şəraitdə yerləşməsinə görə həmişə İran və Rusiyanın əlaqələri bütün beynəlxalq arenada diqqətlə izlənilməkdə olacaqdır. Bu amilə görə həmişə istər-istəməz iki tərəfli əlaqələrdə üçüncü oyunçu mütləq çıxış edəcək və əlaqələrin mahiyyətinə təsir göstərəcəkdir.

Bu fəslin **II yarımfəsilində** müasir dövrdə İran və Rusiya Federasiyasının mövqeyi və qlobal siyasət məsələlərinə nəzər salınmışdır. İranda İslam inqilabının baş verməsi və Sovet İttifaqının dağılması qlobal siyasətdə İran və Rusiyanın mövqelərində müəyyən korrektəyə gətirib çıxartdı. İran dövləti Qərbin müttəfiqi rolundan çıxaraq İslam şüarları ilə silahlanmış müstəqil siyasət yürüdən bir ölkəyə çevrildi.

1990-cı illərin əvvəlindəRusiyada “imperatorluqdan sonra konvergensiv ziyalılıq cərəyanı” adlı bir nəzəriyyə formalaşmışdı. S.Stankeviç, E.Ambartsumov, A.Kokoşin və Q.Yavlinski kimi siyasətçilərə görə Amerika ilə dostluq əlaqələrini qorumaq üçün onun siyasətini təqlid etməyə və müstəqil siyasət yürütməkdən əl çəkməyə ehtiyac yoxdur. Rusiyada hakimiyyət başında olan qərbpərəst qüvvələr onun gələcəyini Qərblə əməkdaşlıq etməkdə və Qərbin dəyərlərini qəbul etməkdə görürdülər.1993-cü ildə Rusiya Prezidenti B. Yeltsinin sərəncamı ilə qəbul edilən "Rusiya Federasiyasının xarici siyasəti konsepsiyasının əsas müddəaları” adlı sənəddə keçmiş SSRİ ərazilərində olan dövlətlər üçün Rusiyanın məsuliyyət daşıdığı vurğulanır və hətta Şərqi Avropaya “tarixi mənafelər bölgəsi” kimi ad verilir. Bu sənədin əsas özəyi Rusiyanın rolu barəsində üç tərəfli bir baxışı ortaya qoyurdu:1. Rusiya regional bir güc kimi çıxış etməsi;2. Rusiya nəhəng dünya gücü kimi;3. Rusiya nüvə nəhəngi kimi.

Göstərilir ki, Rusiyada 1993-cü il parlament seçkilərində yerlərin çoxunu əldə edənmillətçilərin Rusiyanın nüfuzunu bərpa etmək üçün Rusiyanın yeni yaranmış respublikalara hərbi müdaxilə haqqının olduğuna israr etməsi və atdığı bir sıra addımlar Qərb dövlətlərinin narahatçılığına səbəb oldu. Belə ki, bir sıra Amerika siyasətçisi və analitikləri Rusiyanın yaxın regionda atdığı addımları "rusiyanın yeni imperializmi" kimi qeyd etməyə və Rusiya əleyhinə yeni bir siyasətin yürüdülməsinin labüdlüyüqeyd etməyə başladılar.

1990-ci illərin ortalarından regional əməkdaşlıq planları və Qərbin dəstəklədiyi iqtisadi sərbəstliklər barəsində Rusiyada narahatçılıq yaranmağa başladı. Ruslar bu planların Rusiyanın qiymətli xam mallarını qarət etmək və sonda isə dövləti süqut etdirməklə sonuclanacağından başqa bir məqsəd daşımadığını bildirdilər. Bu fikir Yevgeni Primakov tərəfindən elan edilən "Rusiya bir super güc rolunu oynayacaq və dünya siyasətinə öz mövqeyini bu cür bildirəcəkdir" ifadəsindən sonra daha da gücləndı. Habelə, o bildirdi ki, soyuq müharibə dövründə Rusiyanın düşmənləri ilə əlaqələri ədalətli və qarşılıqlı imtiyazlar əsasında həyata keçirilməlidir. Y.Primakova görə Rusiya təkcə Qərb dəyərlərinə inteqrasiya etməməlidir, çünki Rusiyanın yerləşdiyi geopolitik mövqe onun həm Avropa və həm də Asiya qitəsində olmasına gətirib çıxarmış vəbuna görə də Rusiya Avropa və Amerikadan kəskin fərqlənən öz mənafelərinə qarşı çıxmamalıdır.

NATO-nun Yuqoslaviyada hərbi əməliyyatlar keçirməsi, Kosovo böhranı Rusiya ilə Qərb arasında dərin çatlar yaratdı. 2000-ci ildə Rusiya Prezidentinin fərmanları ilə "Rusiya Federasiyasının hərbi doktrinasi", " Rusiya Federasiyasının milli təhlükəsizlik konsepsiyası" və "Rusiya Federasiyasının xarici siyasət konsepsiyası" sənədlərin qəbul olunması Moskvanın siyasətində ciddi dəyişikliklərin baş verməsini meydana çıxartdı. V.Putinin hakimiyyəti illərində Rusiya beynəlxalq arenada böyük nüfuz sahibi ola bildi. Rusiya addımlarını nüvə ölkəsi, böyük bir enerji daşıyıcılarına malik olan və qlobal bir güc kimi atmağa başlamışdı. İranın nüvə proqramı, Kosovonun müstəqilliyi, ABŞ-nın raketdən müdafiə sistemi proqramı, Avropada adi silahlar haqqında müqavilə və postsovet ölkələri istiqamətində NATO-nun genişlənməsi kimi məsələlərdə Moskvanın Qərbə qarşı atdığı addımları müəyyən mənada Rusiyanın öz mənafeyini qoruması üçün fəaliyyyətlərində axtarmaq lazımdır.

Dünya birqütblü olduğundan sonra İran İslam Repsublikası öz xarici siyasətində korrektələr etməyə məcbur oldu. İran "nə Şərqlə və nə Qərblə" siyasətini ittifaq və birlik siyasəti ilə əvəzlədi. İran ABŞ-nın rəqibləri, xüsusən də Rusiya ilə strateji əməkdaşlıq münasibətlərini qurmağa çalışdı.

Həqiqətdə, İraq ilə elan edilməmiş müharibənin başa çatması, Sovet İttifaqının süqutu, quruculuq dövründə ziddiyyətin aradan qaldırılması siyasəti, islahatlar (Xatəmi hakimiyyəti) tərəfindən, mədəniyyətlərin dialoqu siyasətinin ortaya qoyulması İranın xarici siyasətində dəyişikliyə və müxtəlif ölkələrlə əmədkaşlıq sahələrinin yaradılmasına gətirib çıxardı.

Ümumiyyətlə götürdükdə Xatəminin prezidentlik dövründə xarici əlaqələrdə təkqütblü sistemin inkar edilməsi anlamını verən qlobal plüralizm və mədəniyyətlərin

bərabər olmasını qəbul etmək xarici siyasətin əsas prinsipinə çevrildi.Həmin dövrlər İran ilə Qərb arasında əlaqələrin qurulacağı ehtimal edilsə də, amma bir tərəfdən beynəlxalq nüvə enerjisi təşkilatında İranın nüvə proqramı ətrafında müzakirələrin güclənməsi və digər tərəfdən isə 2001-ci ilin sentyabr ayında ABŞ-da dünya ticarət mərkəzinə hücum edilməsi məsələsi yuxarıdakı münasibətlərə öz təsirini göstərdi. İran, İraq və Şimali Koreya Amerika tərəfdən "pisliklərin arxı (Axis of Evil)" olan ölkə kimi adlandı.

Yekun olaraq bu dövr ərzində İranın xarici siyasətinin üç əsas sütun üzərində qurulduğunu qeyd edilir: zərərsizləşdirmək, qarşısını almaq və ziddiyətlərin aradan qaldırmaq. Xatəmi hakimiyyəti ilk öncə ölkəni Amerikanın texnoloji, hərbi və siyasi blokadasının zərərlərindən çıxarmağa çalışdı. Sonra İranın regionda tutduğu mühüm strateji mövqeyə görə müdafiə qabiliyyətini artırmağa çalışdı. Üçüncü istiqamətdə isə beynəlxalq təşkilatlarda, xüsusi ilə də BMT çərçivəsində mədəniyyətlərin dialoqu çərçivəsində region və qonşu ölkələrlə olan problemləri həll etməyə çalışdı.Habelə, Amerika ilə toqquşma riskinin artması İranın Mərkəzi Asiya regionu və Qafqazda xarici siyasətinin prioritetlərini müəyyənləşdirməyə gətirib çıxardı.Sonrakı bütün dövr ərzində İranın Mərkəzi Asiya və Qafqaz regionunda apardığı siyasətin əsas mahiyyəti iqtisadi və siyasi blokadadan qaçmaq üçün mümkün bütün boşluqları ələ keçirtməyə yönəlmişdir.

Əhmədi Nəjadın dövründə yenidən inqilab şüarları və onun əsaslarına istinad etmək İranın xarici siyasətinin əsas prioritetləri hesab edilməyə başlandı. Bu istiqamətdə regional və beynəlxalq aləmdə ABŞ-nın hegemonluğuna qarşı müxalifətdə durmaq, Latın Amerikası və Mərkəzi Amerika ölkələri ilə əlaqələrin genişləndirilməsi, Şanxay Əməkdaşlıq Təşkilatının konfransında aktiv iştirak edilməsi, İranın bu təşkilata daimi üzv seçilməsi, OPEK qaz təşkilatının yaradılmasının təklif edilməsi dövlət tərəfindən həyata keçirilən siyasətin tərkib hissəsi idi. Əhmədi Nejad hakimiyyətinin ən önəmli paradiqmaları İranı regional qüvvəyə çevrilmək, iqtisadi mənafeyi güdmək və dünya iqtisadiyyatına inteqrasiya olmaq təşkil edir.

İran və Rusiyanın qlobal siyasətdə mövqeləri məsələsinə siyasi elmdə iki paradoksal baxış vardır.Birinci baxışa görə Tehran ilə Moskva eyni hədəflərə malik təbii müttəfiqlərdir və onlar arasında əlaqələr qlobal siyasətdə də onların mövqelərinin güclənməsinə gətirib çıxaracaqdır.İkinci istiqamət isə bu əlaqələrin daha çox Rusiyanın maraqlarına cavab verdiyini söyləyirvə qeyd edirlər ki, İran ilə Rusiya arasında olan əlaqələr o səviyyədə deyildir ki, qlobal siyasətdə onların bir-birini dəstəkləməsinə gətirib çıxara bilsin.

II fəslin **3-cü yarımfəsilində** İran və Rusiyanın iqtisadi əməkdaşlığı və onun siyasi nəticələri tədqiq edilmişdir. İran və Rusiyanın iqtisadi əlaqələrinə üç müxtəlif aspektlərdən baxıla bilər. Birinci aspekt iki ölkə arasında müxtəlif məhsulların ticarət və mübadilə əlaqələrinə aiddir.İkinci aspekt isə iki ölkə arası nüvə əməkdaşlığı məsələsidir. Üçüncü aspekt iki ölkə arasında silah alış-verişinə əsaslanan ticarət əməkdaşlığı məsələsidir.

Qeyd etmək olar ki, İran ilə Rusiya arasında iqtisadi əməkdaşlıq siyasi nəticələrə gətirib çıxarmışdır. Çünki bu əməkdaşlıq iki ölkəarası məhsul mübadiləsi ilə yanaşı, həmdə "Buşəhr" nüvə enerji stansiyasının tikilib istifadəyə verilməsi, enerji layihələri üzrə əməkdaşlıq və texnologiya sahələrini də əhatə edir.Ümumiyyətlə, İran ilə Rusiyanın iqtisadi əlaqələrinin bu hissəsi həmişə Qərbi və ABŞ-nı narahat etmişdir. Ruslar nüvə əməkdaşlığının kəsilməsi barəsində Qərb tərəfdən müxtəlif təzyiqlərin olmasına baxmayaraq yenə də İranla nüvə əməkdaşlığını dayandırmaq fikrində deyil.Nəticə etibarı ilə iqtisadi əlaqələr Tehran ilə Moskva arasında siyasi əlaqələrin əsas sütunlarından biri hesab edilir.

İran və Rusiya arasında iqtisadi-ticarət əlaqələrindinamikası müxtəlif olmuşdur. Bu əlaqələrin yüksəlməsiSSRİ-nin son illərinə düşür.Əgər 1988-ci ildə İranın Rusiya ilə ticatər həcmi 335,8 mln.ABŞ $ təşkil edirdisə, 1993-cü ildə bu rəqəm 723 mln. ABŞ $ təşkil edirdi.

İki ölkənin iqtisadi əlaqələrində bir sıra sahələrdə uğur əldə edilsə də, amma hələ də mövcud potensialdan lazımi səviyyədə istifadə edilməmişdir. İran ilə Rusiya arasında iqtisadi əməkdaşlığın istənilən səviyyəyə gəlib çıxmaması sırasında olan problemlər kimi, tərəflərin bir-birinin qarşısına götürdüyü öhdəliklərin yerinə yetirməməsi, hər iki ölkənin ticarət qanunlarında olan maneələr və, bir sözlə, iqtisadi sistemin mükəmməl olmamasını qeyd etmək olar.

Rusiya və İran arasında nüvə əməkdaşlığının xüsusiyyətlərinin tədqiqi zamanı qeyd edilir ki,1967-ci ildə Tehranın nüvə araşdırmaları mərkəzi və 1974-cü ildə İranın "Nüvə Enerjisi Təşkilatı" yaradıldı. İranın "Nüvə Enerjisi Təşkilatı" "Buşəhr" və "Darxuində" 4 stansiyanın yaradılması, stansiyaların texnoloji müdafiəsi və yanacaqla təmin edilməsi və eləcədə mərkəzi əyalət ilə İsfahan əyalətlərində digər 4 stansiyanın yaradılmasını nəzərdə tutulurdu.

İran həmin hədəflərə nail olmaq üçün 70-ci illərin əvvəllərində Amerika, Fransa və Almaniya şirkətləri ilə müzakirələrə başladı. 1974-cü ildə Amerikanın Stanford araşdırmaları institutu ilə bağlanan müqaviləyə görə 1995-ci ilə qədər İran nüvə stansiyalarının təsis edilməsi vasitəsi ilə özünün 20 min meqavat elektrik tələbatını ödəyəcəkdir. İran Siemens, Yorodyof, Kraftverk Union kimi şirkətlərlə müqavilələr bağladı. Amma islam inqilabının baş verməsindən sonra İranın nüvə fəaliyyətləri və tədqiqatları çox böyük dəyişikliklərə səbəb oldu.

Qeyd etmək lazımdır ki, 1995-ci ilin yanvar ayında "Buşəhr" nüvə stansiyasının birinci reaktorunun düzəldilməsi haqqında müqavilə bağlandı. Bu müqaviləyə görə təqribən bu işə bir milyard ABŞ dolları sərf ediləcəyi və reaktorun qiyməti isə 850 milyon ABŞ $ kimi qeyd edildi. "Buşəhr" nüvə stansiyasının yanacaqla doldurulmasına 2010-cu ilin 21 avqust tarixindən etibarən başlandı.

Belə bir sual meydana çıxır ki "Buşəhr" stansiyasının istifadəyə verilməsinin ruslar üçün əhəmiyyəti nədir? Doğurdan da, insanı düşünməyə vadar edir ki, İran əleyhinə bu qədər təzyiqlərin artdığı bir dövrdə niyə Rusiya "Buşəhr" nüvə stansiyasını doldurmağa meyilli olmalı və buna görə praktiki addımlar atmağa başlamışdır. Bu barədə təqribən səkkiz ssenariy ola bilər .

Rusiya rəsmilərinin fikrincə "Buşəhr" stansiysının təkmilləşdirilməsi və istifadəyə verilməsinin İranın nüvə proqramı ilə hər hansı bir bağlılığı yoxdur.

Amerika və Aropa İttifaqı tərəfindən birtərəfli sanksiyaların tətbiqi Rusiyanın BMT Təhlükəsizlik Şürasının 1929 saylı qətnamədə Qərblə əməkdaşlıq etməsində aldadıldığını düşünməyə gətirib çıxarmışdır. Buna görə də ruslar Qərblə birmənalı olaraq əməkdaşlıqdan ehtiyat etməyə və özlərinin Qərb – Şərq siyasətinə yenidən baxmağa başlamışlar. Ruslar BMT Təhlükəsizlik Şürasının İran əleyhinə olan qətnaməsinə səs verməklə bu balansı pozduğunu anladığı üçün "Buşəhr" nüvə stansiyasını istifadəyə verməklə yenidən bu tarazlığı yaratmaq istəyir.

Yekun olaraq qeyd etmək lazımdır ki, "Buşəhr" nüvə stansiyasının təkmilləşdirilməsi və istifadəyə verilməsi İranın nüvə proqramlarının dinc məqsədlər üçün inkişafında inkaredilməz rol oynayacaqdır. Rus analitiklərin fikrincə İranın seçdiyi yolbəlkə nüvə silahlarının yayılmamasını kontrol etməyin qlobal mexanizmlərini də müəyyən edir .

Yarımfəsildə Rusiya və İran arasında hərbi əməkdaşlığın xüsusiyyətləri təhlil edilir. Göstərilir ki, İran və Rusiyanın əməkdaşlığının ən mühüm sahələrindən biri də, əsası 1980-ci illərdə qoyulan hərbi və silah anlaşmalarıdır. İran 1989-1995-ci illərdə təqribən 5 milyard ABŞ $ dəyərində Rusiyadan hərbi silahlar almağa nail oldu. Habelə, 1996-cı ilin fevral ayında İnterfaks agentliyi iki ölkə arasında təqribən 437 milyon ABŞ $ dəyərində hərbi silah-sursat alqı-satqısının baş verdiyini xəbər verdi. 1998-ci ildə İran, Rusiyadan 8S-300 raketi, 1000 ədəd İgla raketi, 25 helikopter və 8 ədəd Su-25 təyyarəsi almaq istədiyini bildirdi.

Bu arada qeyd edək ki İran ilə Rusiya arasında bağlanan ən mühüm hərbi müqavilələrdən biri də S300 raketlərinə aiddir. Qeyd etmək lazımdır ki, Rusiya bir neçə dəfə bu sistemin modellərini sınaqdan çıxarmış, bunu Bolqarıstan,Azərbaycan və Belarusa satmışdır. Bundan əlavə bu silahı əvəzsiz olaraq Ermənistana bağışlamışdır. Habelə, bu sistemin ən mükəmməl formasını Çin, Hindistan və Ukrayna kimi ölkələrə satmaq barədə müqavilə bağlamışdır. S300 raketlərinin İrana satılması barədə müqavilə 2005-ci ilin dekabrında 700 mln. ABŞ $ qiymətində razılaşdırılaraq imzalandı. O vaxtdan indiyə qədər S300 raketlərinin İrana təhvil verilməsi haqqında dəfələrlə xəbər verilsə də, amma hələ öz təsdiqini tapmayıb. 2009-cu ildə İsrail Prezidenti Ş. Peres Rusiyaya səfərindən sonra verdiyi açıqlamada bildirildi ki, Moskva S300 raketlərini İrana satmaq barəsində məsələyə yenidən baxacaqdır. Onunla görüşdə D.Medvedyev belə bir sistemlərin İrana satılması halında Orta Şərqdə qüvvələrin balansını poza biləcəyi üçün bu məsələyə yenidən baxmağa söz verdi.

Nəhayət, 22 sentyabr 2010-cu ildə Rusiya Prezidenti S300 hava hücumundan müdafiə sistemi komplekslərinin təhvil verilməsi və digər səkkiz ağır silahların o cümlədən döyüş tankı, döyüş təyyarələri, hücum təyyarələri, raketlər və raket sistemləri, hərbi gəmiləri, döyüş tipli zirehli maşınlar, böyük kalibrli top sistemləri və hər cürə ehtiyat hissələrinin satışı qadağan olundu. Habelə, bu sərəncama görə həmin qadağa Rusiya ərazisindən daşımağı, Rusiya ərazisindən İrana ixracını,

Rusiya sərhədlərindən kənarda Rusiya bayrağı altında üzən gəmilərdən istifadə etməklə İrana satışını qadağan edirdi. İran rəsmilərinə görə Rusiya özünü İranla bağlı öhdəliklərini beynəlxlaq təziyqlər nəticəsində pozmalı olmuşdur.

**"Müasir dövrdə İran İslam Respublikası və Rusiya Federasiyası arasında siyasi əlaqələrin xüsusiyyətləri"** adlanan III fəsil də üç yarımfəsildən ibarətdir. Bu fəslin **1-ci yarımfəsilində** İran və Rusiya Federasiyasının regional siyasəti araşdırılır. SSRİ dağıldıqdan sonra İran və Rusiya yeni beynəlxalq münasibətlər sisteminə daxil oldular. Tacikistanda olan qeyri-sabitlik, Əfqanıstan problemi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsibu regionlarda nüfuz sahibi olmaq üçün regional və qeyri-regional güclərin rəqabətinın başlanması İran ilə Rusiyanı əməkdaşlığa tərəf istiqamətləndirdi.

Məlumdur ki, 2001-ci ilin 11 sentyabrından sonra İranın Mərkəzi Asiya və Qafqazda yürütdüyü siyasət ABŞ-nın buraya yol açmaması üzərində qurulmuşdur. İran kimi Rusiya da ABŞ-nın burada mövqelərini gücləndirməsindən narahatdır. Buna görə də İran, yalnız Rusiyanın region ölkələrini ABŞ-nın nüfuzundan uzaqlaşdıra biləcəyini yaxşı başa düşür. ABŞ-nın Fars körfəzinə gəlib çıxması, İranın Fars körfəzi ilə olan ölkələrlə əlaqələrində etimadın olmaması üç tərəfdən İranı blokadaya salmış və onun milli təhlükəsizliyi üçün narahatçılıq yaratmışdı. Ona görə də İrandan şimalda yeni dövlətlərin yaranması ilə bağlı yeni geosiyasi durum, bu ərazilərin rəqib ölkələrin əlinə keçməməsi və regionun sabitliyinin qorunmasına prioritet məsələ kimi yanaşılırdı. İranın regionda yürütdüyü siyasəti balanslaşdırılmış siyasət kimi qiymətləndirmək olar. Bir sıra Rusiyalı ekspertlərin fikrincə İranın Qafqaz regionu ölkələri ilə əlaqələrində bir boşluq görsənsə də, bununla belə, İran bu bölgələrin öz siyasəti üçün nə qədər önəmli olduğunu dərk edir. Rusiya və İran bir-birini müttəfiq hesab edirlər. Hətta bir sıra ekspertlər həm İranda və həm də Rusiyada strateji əməkdaşlıqdan söhbət açır və bunun Tehran və Moskva üçün geniş imkanlar yaradacığını söyləyirlər. Hər halda İran və Rusiya yeni beynəlxlaq münasibətlər sistemində Mərkəzi Asiya, Qafqaz və Xəzər dənizində əməkdaşlıq edirlər.

Dağlıq Qarabağ problemi Qafqazın bir nömrəli problemi kimi həmdə region ölkələrin xarici siyasətinin də tərkib hissəsinə çevrilmişdir. İran və Rusiya regional böhranları, o cümlədən Dağlıq Qarabağ münaqişəsini oz milli təhlükəsizlik və regional nüfuzları üçün təhlükə hesab edirlər. Bəziləri İranın Dağlıq Qarabağ münaqişəsində Ermənistanı dəstəklədiyini bildirsələr də, amma bu fikir tamamilə yanlışdır. Həqiqətdə isə Azərbaycanla müqayisədə İranın Ermənistanla münasibətləri yaxşıdır, lakin bu heç də Tehranın Dağlıq Qarabağ münaqişəsində Yerevanın yanında yer alması demək deyildir.

Rusiya və İran həmişə Xəzər dənizdə xarici qüvvələrin yer almaması prinsipi üzrə bir-birini dəstəkləmişlər. 2007-ci ilin oktyabr ayında Tehranda keçirilən Xəzər dənizi hövzələrinin dövlət başçılarının II sammitində Xəzər hövzəsi ölkələri öz torpaqlarından digərinin əleyhinə hərbi əməliyyatlar üçün istifadə etməyə icazə verməmək barəsində öhdəlik götürüldü.

SSRİ dağıldıqdan sonra Mərkəzi Asiya və Qafqaz regionu İran və Rusiyanın rəqabət meydanına çevrildi. Amma bu rəqabət ABŞ ilə Türkiyənin burada nüfuz sahibi olmasından İran və Rusiya mübahisələri kənara qoymaq və qarşılıqlı əmək-daşlıq etməyə razılaşdılar. İki ölkə bir sıra məsələlər, o cümlədən Tacikistan məsələsində bir-biri ilə ciddi əməkdaşlıq etdilər.

III fəslin **2-ci yarımfəsli** İran və Rusiya Federasiyasının siyasi əməkdaşlığı qarşılığında Qərb dövlətləri və ABŞ-ın yürütdüyü siyasət məsələlərinin tədqiqinə həsr edilmişdir.

İran və Rusiya əlaqələrini, Qərbin rolunu nəzərə almadan müəyyənləşdirmək mümkün deyil. Qərb İran və Rusiya əməkdaşlığını özlərinin regionda olan siya-sətləri üçün başlıca təhlükə kimi görür və buna görə də onların əlaqələrini pozmağa çalışır. Müasir tarixdə ABŞ həmişə İran və Rusiya əlaqələrinə təsir edən mühüm amil olmuşdur. ABŞ daima bu iki ölkənin əlaqələrini zəiflətməyə çalışmışdır. Bu siyasət SSRİ-nin düşmən və İranın müttəfiq hesab edildiyi dövrdə və eləcədə Rusiyanın müttəfiq, İranın isə düşmən hesab edildiyi dövrdə də dəyişilməz olaraq qalmışdır. İran və Rusiyanın hər birinin ABŞ-ya qarşı tutduğu mövqenin səbəbləri fərqli olsa da, onlar ABŞ-nın nüfuz dairəsinin artmasına qarşı çıxmaqda ümumi hədəfə malikdirlər. Hər iki ölkə yerləşdiyi ərazidə regional güc olmağa can atdığı üçün burada ABŞ-nın mövcudluğu onlar üçün təhlükə törədə bilər. Tehran da Moskva kimi NATO-nun Şərqə doğru irəliləməsi, Qafqaz və Mərkəzi Asiya regi-onunda ABŞ-nın siyasi və iqtisadi nüfuzunun artmasından narahatdır.Rusiya ilə Qərbin qarşıdurması artdıqca İranın beynəlxalq səviyyədə manevr etmək imkanları da artır, lakin Rusiya ilə ABŞ münasibətlərinin korlanması zamanı Iran və Rusiya əlaqələri güclənir. Bundan belə nəticəyə gəlmək olar ki, bir tərəfdən ABŞ ilə Rusiyanın və, digər tərəfdən, Rusiyanın İranla əlaqələri bir-birinə təsir edir.Lakin qətiyyətlə demək olar ki, Rusiya ilə ABŞ ələqələrinin ən kəskin dövründə belə mövcud vəziyyət İran və Rusiya əlaqələrinin güclənməsinə və ya strateji müttəfiq olmağa səbəb olmamışdır.Yeni yaranan şəraitdə isə İranla olan ziddiyyətli məqamlar Rusiya və ABŞ-nı bir-birinə yaxınlaşdırmışdır.

ABŞ Rusiyanı İranla nüvə əməkdaşlığını dayandırmağa səslədikdə Rusiya buna qarşı çıxmış və digər tərəfdən isə güzəştlər etməklə ABŞ-dan imtiyazlar qopartmağa çalışır. Rusiya və Qərbin əlaqələri də İrana təsirsiz ötüşmür. Qərbin İrana qarşı çıxması onu Rusiyaya tərəf istiqamət götürməsinə səbəb olmuşdur.

Qərb yeni yaranmış müstəqil dövlətləri öz nüfuzu altına salmağa çalışır.Ötən illər ərzində NATO İran və Rusiyanın qonşuluğuna qədər gəlib çıxmışdır. Bu təşkilatın Şərqə doğru genişlənməsi, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə hərbi əməkdaşlığın artması Rusiya və İranın milli mənafelərinə təhlükə yaradır.

III fəslin **3-cü yarımfəsili** İran və Rusiya Federasiyasının geostrateji əmək-daşlığı, iki ölkə arasında siyasi əlaqələrinin əsas parametrləritədqiq edilir. Qərb ölkələri silah və texnologiya sahəsində İranla əməkdaşlıqdan boyun qaçırdığına görə İran ilə Rusiyanın bu sahələrdə əməkdaşlığı iki ölkə arasında ən vacib parametr-lərdəndir. Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə əlaqədər, İran və Rusiyanın

siyasi münasibətlərinə mühüm təsir göstərən amildir. Bir tərəfdən Rusiya ilə Qərb arasında yaranan uçurum, digər tərəfdən isə iqtisadi imkanlar, Tehran və Moskvanı bir-birinə yaxınlaşdıran iki mühüm amil hesab edilir. Buna görə də hər iki ölkə Mərkəzi Asiya və Cənubi Qafqazda onların burada davamlı olaraq rəqabət aparması regionda ABŞ, Türkiyə, Çin, Hindistan və İsrail kimi ölkələrin nüfuzlarının artmasından narahat olduqları üçün hər iki ölkə bir-biri ilə əməkdaşlıq etməklə regionda ABŞ-nın nüfuzunun qarşısını almağa çalışir.

Hal-hazırda İran və Ruiyanın əlaqələrində bir sıra xüsusiyyətlər mövcuddur: 1) iki ölkə arasında fundamental ziddiyyətlərin mövcud olmaması,2) regional və qlobal səviyyədə eyni və ümumi mənafelərin mövcudluğu,3) iki ölkə arasında son illərdə iqtisadi və mədəni münasibətlərin inkişaf etdirilməsi, 4) qeyri-regional oyunçuların iştirakı olmadan regionun təhlükəsizliyini təmin etməyə çalışılması, 5) NATO-nun Şərqə doğru genişlənməsinə qarşı birgə çıxış edilməsi, 6) ədalətli və bir neçə qütblü sistemin yaradılması üçün çalışılması.

Bu xüsusiyyətlər İran və Rusiya arası münasibətlərin geniş bir sahəsini əhatə edir və iki ölkənin əlaqələrini strateji müttəfiqliyə qədər irəli apara bilər.

Dissertasiya işinin **nəticə** hissəsində aparılmış tədqiqatın əsas yekunları əks etdirilmiş, praktiki təkliflər və tövsiyələr öz əksini tapmışdır. Burada haqlı olaraq ümumiləşdirmə aparalaraq Rusiya İran münasibətlərində bir qanunauyğunluk müşahidə olunur. Rusiya-Qərb, və ilk növbədə Rusiya-ABŞ arasında siyasi münasibətlər pisləşdiyi halda, Rusiya İranla olan siyasi münasibətlərin daha da inkişaf etməsinə can atır. Bunun əksinə olaraq, Rusiya-Qərb arasında siyasi münasibətlər yaxşılaşdiqda, bu münasibətlərin xeyrinə Rusiya İranla olan siyasi münasibətlərini qurban verməyə belə hazır olduğunu nümayiş etdirir. İran və Rusiya əlaqələri ikitərəfli müstəqil əlaqə olmamışdır. Elə buna görə də Rusiya ilə ABŞ arasında siyasi əlaqələr dəyişən kimi, iki ölkə arası əlaqələrdə də dəyişiklik müşahidə olunur. Bu isə Rusiyanın İrana qarşı xarici siyasətinin ikili standartların üzərində yürütməsini biruzə verməsi nəticəsinə gəlinir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**


1. Российско-иранские отношения: основные тенденции развития // Вестник ТГУ, 2011, выпуск 11(103), s.324-329.
2. Иран-Россия-второй политический полюс // Кавказоведение, № 17, 2010, s.144-150
3. Эконимечская основа развития Российско-иранских отношений, Социально-экономическое развитие и качество жизни: история и современность / Международная научно-практическая конференция, Пенза-Семпилянтинск, 10-11 мая 2011 года, с. 65-68.

4. Sovet İttifaqının süqutundan sonra İran və Rusiya münasibətləri // "Dirçəliş-XXI əsr" jurnalı, №160-161, 2011, s.257-262
5. Iran-Russia Relations within the New International Space, // TURAN Stratejik Araştirmalar Merkezi, 13mart 2012, s.16-20
6. Qloballaşma dövründə İran və Rusiya arasındakı siyasi münasibətlərin bəzi aspektləri // "TURANSAM" dergisi, sayı №10, 2011, s. 14-16.
7. İran İslam Respublikasının Qafqaz siyasəti Rusiya və Türkiyə münasibətləri kotekstində // "İpək yolu" beynəlxalq elmi ictimai-siyasi jurnal, №4, 2011, s. 84-88.
8. Россия м Иран в конце первого десятилетия XXI в. //Научный Вестник, Украина, выпуск 60 (№5), 2012, s.209-212
9. Российско-иранские стратегические отношения в современных международных отношения //Вектор Науки ТГУ, №2(5) 2011, с.104-108
10. Развитие Российско-Иранских экономических отношений / Стратегическое планирование развития городов России . Сборник материалов Международной научно практической конференции, Тольятти, 20-21 июня 2011 г,с.14-22
11. Rusiya və İranın nüvə siyasəti:strateji tərəfdaşlıq, yoxsa ümumi düşmənə qarşı ittifaq //"Dirçəliş-XXI əsr" jurnalı, №176-177, 2013, s.92-101

**Абдулнасир Эбадулла оглу Феязи**

**Российско-Иранские политеческие отношения в современном этапе**

## РЕЗЮМЕ

В диссертации рассматриваются актуальные проблемы российско-иранских отношений с точки зрения динамики и стратегии их развития, что имеет как научно-теоретическое, так и практическое значение. Анализ указанной проблемы в современных условиях актуален также и с точки зрения развития как ирано-российских, так и российско-азербайджанских отношений.

Диссертация, в соответствии с поставленными целями и задачами, состоит из введения, трех глав, объединяющих 9 подглав, заключения и списка использованной литературы.

Первая глава диссертации, озаглавленная «Исторические традиции Ирано-Российских связей и геополитические факторы», состоит из трех глав. В первом параграфе главы рассматриваются основные этапы истории становления ирано-российских отношений. Во втором параграфе исследуются политические связи между двумя странами в период после исламской революции до распада СССР.В последнем, заключительном параграфе анализируются современные особенности динамики развития отношений между Ираном и Россией.

Во второй главе, озаглавленной «Основы общих политических интересов Ирана и России в современный период» материалы исследования объединены в три подглавы. В первом параграфе второй главы делается попытка определить место Ирана и России в системе международных отношений. Во втором параграфе этой же главы рассматриваются вопросы экономического сотрудничества Ирана и России и их политические последствия.В третьем параграфе указанной главы уделено внимание проблеме позициям Ирана и России в современный период в рамках глобальных политических процессов.

В третьей главе«Особенности политических связей между Ираном и Россиейв современную эпоху»,состоящей из трех подглав, рассматриваются следующие процессы: В первом параграфе указанной главы делается попытка определить региональную политику Ирана и Российской Федерации в современноммире. Во втором параграфе указанной главы рассматриваются Проводимой политики Западных стран и США за политическое сотрудничество Ирана с Российской Федерацией. В третьем параграфе третьей главы рассматриваются вопросы Геостратегического партнерства Ирана и Российской Федерации.

В заключении диссертации отражены основные выводы по проведенному исследованию, а также практические выводы и рекомендации.

**Abdulnasir Ebadullah Feyazi**

## The political relations of İran and Russia in the modern period

## SUMMARY

The dissertation is devoted to the topical problems of Russian-Iranian relations from the point of view of dynamics and strategy of their development, having the scientific-theoretical and practical importance. The analysis of the problems in modern conditions is also important from the point of view of development Iranian-Russian and Russian-Azerbaijani relations.

Thesis, in accordance with the objectives and tasks, consists of introduction, three chapters, uniting 9 paragraphs, conclusion and list of the used literature.

The first chapter of the thesis, entitled “Historical traditions and geopolitical factors of İran- Russia relations ", consists of three chapters. In the first paragraph of the chapter discusses the main stages of political relations in the history of Iranian-Russian relations. The second section explores the political ties between the two countries in the period after the islamic revolution till the collapse of the USSR. In the latter, the final paragraph analyses the modern pecularities of the dynamics of the development of relations between Iran and Russia.

In the second chapter, entitled "The Basis of common political interests of Iran and Russia in the modern period" the study materials are grouped into three subchapter. The first paragraph of the chapter focuses on the problem of the positions of Iran and Russia in the international relations system. The second paragraph of this chapter deals with the position of Iran-Russia in modern life and their global politics. The third paragraph of the second chapter attempts toeconomic cooperation between Iran and Russia and their political consequences.

In the third chapter of the entitled "Peculiarities of political relations between Iran and Russia", consisting of three paragraphs, is discussed the following processes: 1.the regional politics between Iran and Russia 2.discription the features of Western policy in relation to the political cooperation between Iran and Russia. The third paragraph of the third chapter deals with the basic parameters of political relations between Iran and Russia.

The conclusion of the thesis reflects the main findings of the study, as well as practical conclusions and recommendations.

**НАЦИОНАЛЬНАЯ АКДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**НАУЧНО ИССЛЕДОВАТЕЛЬСКИЙ ИСТИТУТ**

**ПО ПРАВАМ ЧЕЛОВЕКА**

*На правах рукописи*

**Абдулнасир Эбадулла оглу Феязи**

# Российско-Иранские политические отношения в современном этапе

**Специальность: 5901.01 – Международные отношения**

# А В Т О Р Е Ф Е Р А Т

диссертаци на соискание научной степени доктора философии
по политическим наукам

**БАКУ -2014**